# Azərbaycan Respublikasının
# İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın)
# 21 sentyabr Beynəlxalq Sülh Günü münasibətilə müraciəti

21 sentyabr – BMT-nin Beynəlxalq Sülh günü  dünya miqyasında, o cümlədən ölkəmizdə əlamətdar bayram kimi geniş qeyd edilir. Bu tarixi gün insanların sülh diləyini, sülh şəraitində yaşamaq hüququ ilə yanaşı, bütün insan hüquq və azadlıqlarının gerçəkləşməsinin, bəşəri arzuların fövqündə dayanmaqla hər bir istəyə yalnız sülh şəraitində çatmağın mümkünlüyünü təcəssüm etdirir.

Sülh dialoqu, mədəniyyətlərarası, dinlərarası dialoqu, sülh mədəniyyəti sülh və təhlükəsizliyə qorxu yaradan amilləri aradan qaldırmaqda və ən əsası, münaqişələrin həll edilməsində və sülh prosesinə dəstək verilməsində mühüm əhəmiyyət kəsb edir. Sülhyaratma proseslərində vətəndaş cəmiyyətinin, qadınların, gənclərin, uşaqların iştirakına dəstək verilməli, dünyada sülhü qoruyub saxlamaq, xalqların rifahını yüksəltmək istiqamətində bütün səylər birləşdirilməlidir.

Bu il  Ermənistanın Azərbaycana qarşı təcavüzünün 20 ili tamam olur. Təcavüzkar Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal etməsi və azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti ilə üzləşən xalqımızın müharibə dəhşətlərini öz taleyində yaşaması, əzəli torpaqlarından, yurd yerlərindən qovulmuş soydaşlarımızın çadır düşərgələrinə, qaçqın qəsəbələrinə sığınması insan hüquqlarının kütləvi şəkildə və kobudcasına pozulması ilə yadda qalmışdır.

Torpaqlarının bir hissəsi işğal olunmuş, bir milyondan artıq qaçqın və məcburi köçkünu olan ölkəmizdə sülh mövzusu xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın haqq işini dünya ictimaiyyətinə, sülhsevər qüvvələrə çatdırmaq, nüfuzlu beynəlxalq təşkilatların diqqətini və səylərini Dağlıq Qarabağ münaqişəsinin həllinə yönəltmək ən mühüm zərurət kimi qarşıda durur. Bu gün uzun sürən sülh danışıqları, beynəlxalq təşkilatların (BMT, ATƏT-in Minsk qrupu və. s) problemin həllində vasitəçilik missiyası hələ də məsələnin həllində öz effektiv nəticəsini göstərə bilməmişdir.

BMT-nin Təhlükəsizlik Şurasının 1993-cü il 822, 853, 874, 884 saylı qətnamələrinin, habelə BMT Baş Məclisi tərəfindən bu il qəbul edilmiş, Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağla bağlı münaqişənin həll edilməsi, regionda sülh və təhlükəsizliyə təhlükə yaradan bütün hərbi əməliyyatların dayandırılması, atəşkəsin əldə edilməsi və düşmənçilik aktlarının dərhal dayandırılmasını, həmçinin bütün işğalçı erməni qüvvələrinin Azərbaycan torpaqlarından birmənalı şəkildə çıxarılmasını nəzərdə tutan 14 mart 2008-ci il tarixli qətnamənin icrası yerinə yetirilmir. Həm də sülhə və təhlükəsizliyə saymazyana münasibət bəslənilir, Azərbaycana qarşı düşmənçilik siyasəti bu gün də davam etdirilir, atəşkəs rejimi mütəmadi pozulur, işğal altında olan torpaqlarımızda mövcud mədəni irsimiz mənimsənilir, nadir tarixi abidələrimiz amansızcasına dağıdılır. Proseslərin bu

yöndə cərəyan etməsi dünyada sülh baxışlarının inkişafına təsir edən neqativ amillərdən olduğundan, məsələnin həllində dünya ictimaiyyəti, beynəlxalq qurumlar öz dəstəyini əsirgəməməlidir.

1998-ci ildən nüfuzlu Beynəlxalq Sülh Bürosunun üzvü olan, ölkədaxili və beynəlxalq miqyasda davamlı fəaliyyət göstərən Azərbaycan Sülh və İnkişaf Alyansının genişlənməsi, ölkəmizdə vahid sülh strategiyası əsasında Milli sülh hərəkatının yaradılması və formalaşması respublikamız üçün çox önəmlidir.

Ölkəmizdə təsdiq olunmuş və uğurla həyata keçirilməkdə olan Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planında sülh və dözümlülük mədəniyyətinin təbliğinə də mühüm əhəmiyyət verilməsi, o cümlədən bu istiqamətdə davamlı tədbirlərin həyata keçirilməsi dövlətimizin sülh siyasətini bir daha təsdiq edir. Bu baxımdan bu il respublikamızda elan etdiyimiz, 21 avqust - 21 sentyabr tarixlərində "Sülh aylığı"nın keçirilməsi ölkə səviyyəsində dövlət siyasətinin tərkib hissəsi kimi, sülh hərəkatına verilən dəstəkdir.

Bu məqsədlə dövlət rəsmiləri, elm xadimləri, QHT-lərin, vətəndaş cəmiyyətinin nümayəndələri, milliyyətindən, dinindən və irqindən asılı olmayaraq, əhalinin bütün zümrələri öz səylərini yerli və beynəlxalq səviyyədə konfliktlərin həllinə, icmaların inkişafına yönəltməli, habelə davamlı inkişafı təmin etmək üçün həmrəylik göstərməliyik.

Dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı olan BMT-nin göstərdiyi səyləri ayrı-ayrı ölkələrdə yaşayan insanların rifah halının yaxşılaşmasına yönəlmişdir. İnanırıq ki, bu mötəbər qurumun sülh məramlı və əmin-amanlığa istiqamətlənmiş bütün ideyaları dünyada sülh dialoqunun və mədəniyyətinin, mədəniyyətlərarası, dinlərarası dialoqun inkişafında, o cümlədən sülh və təhlükəsizliyə qorxu yaradan amillərin aradan qaldırılmasında yardımçı olacaqdır.

**professor Elmira Süleymanova**

**Azərbaycan Respublikasının**

**İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)**

**__ sentyabr 2008-ci il**

Müraciət BMT-nin Baş Katibinə, BMT Təhlükəsizlik Şurasına, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, ATƏT-ə, Avropa Şurasına, Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, Beynəlxalq Sülh Bürosuna, Universal Sülh Federasiyasına, Azərbaycan Respublikasının xarici ölkələrdəki və xarici ölkələrin respublikamızdakı səfirliklərinə və Azərbaycan diaspor təşkilatlarına, xarici ölkələrin ombudsmanlarına göndərilmişdir.